AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# İSLAM VƏ MİLLƏTÇİLİK: TARİXİ-FƏLSƏFİ ASPEKTLƏR

**İxtisas: 7210.01 - Fəlsəfə tarixi**
**Elm sahəsi: - Fəlsəfə**

**İddiaçı: Rasim Hacı Ağa oğlu Məcidov**

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** Fəlsəfə elmləri doktoru, professor
**Rəbiyyət Nurullah qızı Aslanova**

**Elmi məsləhətçi:** Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Qəmər Cəfər qızı Mürşüdlü**

**Rəsmi opponentlər:** Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Arzu Əşrəf qızı Hacıyeva**

Fəlsəfə elmləri doktoru, professor
**Cahangir Rza oğlu Məmmədov**

Fəlsəfə elmləri doktoru, dosent
**Afaq Sultan qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor
**Rafail Ayvaz oğlu Əhmədli**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.**Qədim sivilizasiya mərkəzlərindən biri sayılan Azərbaycanda İslam dininin zəngin tarixi-fəlsəfi ənənələri vardır və bu ənənələrin dini-mədəni dəyərlər sistemində öyrənilməsi və tədqiqi Azərbaycan alimlərinin əsas vəzifələrindən biridir. Bu kontekstdə parçalanmaya məruz qalmış dini təriqətlərin cəmiyyətə yol açması, xüsusiləşdirilmiş "dini-fəlsəfi" təssəvurlərin müxtəlif yollarla insanlar arasında yayılması Azərbaycanda da dini-mədəni dəyərlərin inkşaf tendensiyalarına öz neqativ təsirini göstərir.

Müstəqillik əldə etmiş Azərbaycanda dini və milli köklərə qayıdışı və milli ideyaların müasir fəlsəfi kontekstdə başa düşülməsi nəticəsində demokratik prinsiplərin bərqərar olması yaxın 30 ildə aparılmış uğurlu daxili və xarici siyasətin məntiqi nəticəsidir.

Dini-milli fəlsəfi ideyalar mövzusunda Azərbaycanda son illər ərzində müxtəlif elmi əsərlər yazılmış və bu istiqamətdə konstruktiv araşdırmalar aparılmışdır. Bu problem müxtəlif aspektlərdə tədqiqat obyektinə çevrilsə də, onun müasir şəraitdə fəlsəfi-tarixi inkişaf tendensiyaları tam və bütöv halda, sistemli ardıcıllıqla tədqiqata cəlb edilməmişdir. Bu səbəbdən Azərbaycanla və onun qonşuluğunda yeləşən ölkələrin dini-milli dəyərlərinin inkişaf xüsusiyyətlərinin sistemli təhlilini verən tədqiqatlara xüsusi ehtiyac duyulur.

İslam və millətçilik problemi çətin və çoxaspektli bir sahə olub mədəni, hüquqı-dövlət, sosial-iqtisadi sahələrdə, ümumiyyətlə cəmiyyət həyatının bütün istiqamətlərində, qarşılıqlı təsir müstəvisində özünü göstərmişdir. Bu tarixi təzahür mahiyyət etibarılə köhnə ilə yeninin, müasirlə keçmişin, milli ilə beynəlmiləlin, ümumi ilə xüsusinin qarşılıqlı münasibətidir. Tədqiq edilən islam və milli ideyalar problemi xalqlararası münasibətlər çərçivəsində bizə bir çox konsepsiyalarla tanış olmaq imkanını yaradacaq, Yaxın və Orta Şərq bölgəsində olan müsəlman dövlətlərin siyasiləşdirilmiş və ideallaşdırılmış ictimai həyatında necə rol oynaması barədə dəqiq məlumatlara malik olmaq imkanı verəcəkdir.

Son dövrdə bu bölgədə baş verən hadisələr göstərir ki, islam dini kənar qüvvələrin köməyi ilə mədəniyyət-sivilizasiya müstəvisindən süni surətdə çıxarılır və çox təhlükəli olan siyasi-ideoloji müstəviyə keçirilir.

Son dövrlərdə bu mövzu dünyanın bir çox tədqiqatçıları tərəfindən müxtəlif aspektlərdə öyrənilmiş və tədqiq edilmişdir. Dinə aid olan nəzəriyyələrin, konsepsiyaların, sosial təsisatların və milli ideyaların müxtəlif səpgidə tədqiqatçılar tərəfindən irəli sürülmüş işlənmə mexanizmləri disertasiyanın konseptual əsasının yaradılması, eyni zamanda nəzəri-metodoloji prinsiplərin formalaşması işində bizə yardımçı olmuşdur.Bukontekstdə Azərbaycan dilində bir çox alim və tədqiqatçıların, o cümlədən R.N. Aslanovanın, G. Baxşəliyevanın, K. Bünyadzadənin, A.Əhədovun, R.Əliyevin, A.Əlizadənin, H. Hüseynovun, H.R. İmanovun, A.R.İsazadənin, Ə.R. İzzətbəyoviçin, R. Mehdiyevin,F.Ələkbərlinin, A.Məmmədovun, V.K. Mustafayevin,A. Paşazadənin,H. Orucovun, S. Xəlilovu[1] yaradıcılığı diqqəti cəlb edir. Araşdırılan məsələlər sırasında islamın mənəvi və tarixi əsasları,islam və mədəni müxtəliflik, Qafqazda islam, islam fundamentalizminin mahiyyəti, onun əsas prinsipləri vətəzahür formaları,Qərb-Şərq münasibətlərinə

---

[1]Aslanova, R. İslam və Mədəniyyət. Bakı: - N. - 2002. - 405 s.; Baxşəliyeva G. İslam: ensiklopedik lüğət. Gövhər Baxşəliyeva, Ə.Abbasov. Bakı: Elm, 2013. - 523 s; Агаев, С. Л. Иран между прошлым и будущим. События. Люди. Идеи. М.: Политиздат, 1987.-274. с.; Али-заде А.А. Маварди Абу аль-Хасан: Исламский энциклопедический словарь. М: Ансар, 2007. - 400 с.; Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: N. 2010. - 154 s.; Əhədov, A. Azərbaycanda islamın modernləşdirilməsi. Bakı: Azərnəşr, 1994. - 157 s.; Əliyev, R. İslam. Bakı: İrşad mərkəzi, 2000. - 375 s.; Hüseynov, H. Qərb-Şərq münasibətləri xristian və islam təfəkkürü baxımından Bakı: Təknur, 2005. - 152 s.; İmanov, H. Etnik dinlər və dünya dinləri. Bakı: N. 2003. – 369 s.; İzzətbəyoviç, Ə. İslam və müasirlik. Bakı: N. 1997 - 247 s.; Исазаде А.Р. Государственный строй и правовая система Турции. Б.: Азербайджан, 2005. – 345 с.; Müstafayev, V.K. Cənubi azərbaycanlıların milli şüuru haqqında bəzi qeydlər // Cənubi Azərbaycan tarixi məsələləri (məqalələr toplusu), Bakı: N. 1989. - 160 s.; Paşazadə, A. Qafqazda islam: Tarix və müasirlik. Şeyxülislam Allahşükür Paşazadə. Bakı: Azərnəşr, 1991. - 352 s.; Orucov H. İslamda əxlaq. Bakı: N. 2010. 208 s.; Xəlilov S. Fəlsəfədən siyasətə. Bakı: Şərq və Qərb, 1998. - 623 s.

xristian və islam təfəkkürünün təsiri xüsusiyyətləri, islamın fəlsəfi, hüquqi və tarixi aspektləri,Azərbaycanda islamın modernləşdirilməsi, islam və insani dəyərlər,Cənubi azərbaycanlıların milli şüurunda islam dinini yeri və s. problemlər geniş tədqiq edilmişdir.

Göründüyü kimi, dissertasiya işi islamın mənəvi, estetik, hüquqi, siyasi, tarixi aspektləri Azərbaycan reallıqları nəzərə alınaraq təhlil edilmişdir.Eyni zamanda geniş fəlsəfi-tarixi aspektdə islamın ideoloji və siyasi tərəfləri, islam faktorunun müasir dünyanın siyasi xəritəsinin formalaşmasında rolunun geniş tarixi panoramı və fəlsəfi aspektdə bu proseslərin qiymətləndirilməsi Azərbaycan tədqiqatçıları tərəfindən hələ də aparılmamışdır.

Bu kontekstdə iran tədqiqatçıları, o cümlədən S.M. Musəvi Lari, M. Mütəhhəriİslam və Qərb mədəniyyəti, insanın mənəvi dəyərlər sistemində islamın rolunu geniş tədqiq etmişlər[1].

Türk dilində nəşr olunan tədqiqat işlərində əsasən etnik-dini məsələlərin muqayisəli təhlili aparılmışdır. Burada ilk növbədə Niyazi Berkes, Ali Çarkoglu, Binnaz Toprak, Soner Çaqaptay, A. Kafkasiyalı S. Bosnalı, E. Bayır və digər tədqiqatçıların adları çəkilməlidir.Digər tərəfdən geniş fəlsəfi-tarixi araşdırmalar sırasında H.Bammat, Z.Göyalp kimi mütəfəkkirlər islam dininin Qərb mədəniyyətinin inkişafında rolunu, islamçılıq və türkçülük ideyalarının əsaslarını təhlil etməyə müəyyən töhvə vermişlər[2].

---

[1]The Politics of Islamism. Ed: Esposito John L. Lily Zubaidah, R, Ghobadzadeh, N // Diverging Visions and Trjectories. The Editors and Authors. 2018 - 243 p.; Муджтаба, С, Мусави, Л.И. Верховная Власть В МусульманскойОбшине. Лекции по мусульманской догматике. Издатель - Qum: Foundation of Islamic C.P.W, 2006. - 100 c.

[2]Berkes, N. Türkiyə'də Çagdaşlaşma'nın Gelişimi // Yapı kredi yayinları, 1976 - 590 s.; Çarkoglu, A, Toprak, B. Degişen Türkiye'de Din. // Toplum və Siyaset. Kasım 2006 - 100 s.; Çaqaptay, S. Türkiye'de Laikligin ve Diş Politikanın Geleceg'i – Seçimler ve Endişe Verici Gelişmeler // Washington Yakın Doğu Politikaları Enstitusu, Policy Focus #67 / Nisan 2007 - 57 s.; Bayır, E. Fars milletçilyi ve Güney Azerbaycan Milli Direniş Herekatı. // Avrasiya Dosyası, cilt 5, sayı 3, 1999. 32 - 41 s.; Kafkasiyalı, A. İran Türkleri. İstanbul: Bilgeoğuz, 2010 - 972 s.; Gökalp, Z. Türkleşmek, islamlaşmak, müasirleşmak. Ankara: 1960. - 120 s.; Berkes N. The Development of Sekularizm in Turkey. Montreal, 1964 - 570 p.;

Rusiya tədqiqatçılarının araşdırmaları və ümumiyyətlə rus dilində nəşr olunmuş əsərlər də elmi işdə tədqiq edilən problemlərə müəyyən zaman kəsiyində yaxınlaşmış və problemin işlənməsinə paradiqmal olaraq öz təsirini göstərmişdir. Bu tədqiqatlar sırasında N.Aşırovun, Z.İ.Levinin, E.A. Doroşenkonun, N.V. Jdanovun, Q.M.Kərimovun, D.M.Uqrinoviçin, A.V. Malaşenkonu, S.A.Starostinanın, V.D, Moluşkovu, O.Jiqalinanın[1] Şərq ölkələrində millətçilik, islam amilinin milli inkişafa təsiri, ayrı-ayrı ölkələrdə islam məzhəbləri və onların dövlətin idarə olunmasında rolu, dini psixologiya problemləri,islam qanunlrı və onun insan həyatında rolu, islamın dünya nizamının qurulmasında rolu kimi məsələlərə münasibətini qeyd etmək olar.

Qərbi Avropa ölkələrində də islamın yarandığı dövrdən dünyada islam amilinə, o cümlədən islam hüququna, islam dininin mənəvi, mədəni, siyasi, hüquqi cəhətlərinə, ayrı-ayrı islam dövlətlərinin etnik və sosial inkişafına islam amilinin təsiri xüsusiyyətlərinə nəzər yetirənlərin sırasında ilk növbədə A.C.Toynbi, Şarl Raymond, Anri Korben, L.R.Sükiyaynen kimi tədqiqatçıların adı çəkilməlidir[2].

---

[1]Аширов, N. Ислам и нация.Москва: Наука. 1975 - 140 с.; Левин, З.И. Ислам и Национализм в странах зарубежного Востока.Москва.: Наука, 1998 - 217 с.; Дорощенко, Е.А. Эволюция исламских концепций в официальной идеологии Ирана. // Ислам и проблемы национализма в странах Ближнего и Среднего Востока. Москва: 1968 - 133 с.; Жданов Н.В. Исламская концепция миропорядка. М.: Международные Отношения, 1991 - 212 с.; Керимов, Г.М. Шариат: Закон жизни мусульман. Ответы Шариата на проблемы современности. СПб.: Издательство Диля, 2009 - 512 с.; Угринович, Д.М. Психология религии. Москва: 1986 - 144 с.; Малашенко, А.V. Музикарж Й. В поисках альтернативы: Араб. концепции путей развития / А. В. Малашенко; АН СССР, Ин-т востоковедения. - Москва: Наука, 1991 - 209 с.; Старостина, С.А. Корйаков, В.П. История мусульманского государства и права. Часть 1 (188 с.). Часть 2 (106 с.)., Калининград: КЮИ МВД России, 2002.; Молущков, V.Q. Хромова К.А. Поиски путей реформации в исламе: опыт Ирана. Москва: 1991 - 147 с.; Жигалина, О. Этносоциальная эволюция иранского общества. Москва: Восточная литература, 1996. - 261 с.

[2]Тойнби Арнольд Дж. Дайсаку Икеда. Диалог Тойнби – Икеда // Человек должен выбрать сам. М.: 1998 - 445 с.; Сюкияйнен Л.Р. Мусульманское право: Вопросы теории и практики. М.: Наука, Гл. ред. вост. лит., 1986 - 256

Digər tərəfdən qeyd etmək lazımdır ki, islam və millətçiliyin tarixi-fəlsəfi aspektləri problemini qloballaşma prosesindən heç bir halda mərkəz-əyalət münasibətləri kimi kənarda saxlamaq olmaz. Bu proseslərdə Azərbaycanın siyasi aktor kimi iştirakını görməmək ən azından bəsirətsizliyi meydana çıxarır.XX əsrin sonlarından başlayan "yeni dünya düzəni" qaydalarınn yaradılması cəmiyyətdə baş verən proseslərin milli-dini identiklik və millətçilik, demokratikləşmə, yüksək texnologiyalara keçid, qlobal iqtisadiyyatın informatikləşdirilməsi, multikulturalizm və ona bənzər lahiyələrin ümumi qlobal vahid subprosesə çevrilməsi ilə nəticələndi. Bu sahədə Avropa tədqiqatçılarının ilkin mərhələdən irəli sürdükləri ideya və mülahizələr mövzunu daha da, əhatələndirir və tədqiqat işini maraqlı kontekstdə işlənməsinə şərait yaradır.

İngilis dilində də bu sahədə geniş elmi tədqiqatlarla zəngin ədəbiyyat mövcuddur. Bu tədqiqat və məqalələrdən, kitab və analitik məlumatlardan nümunə olaraq E.Gelnerin, Kemal H. Karpatın, F. Fukuyamanın, F. Zakarianın, S.P. Hantingtonun, Simon Schusterin, Z. Bzezinskinin, Svante E. Cornellin, John L. Espositonun, Lily Zubaidah Rahimin, Naser Ghobadzadehin, Amal Saad-Ghorayebin, Roy Caksonun, Abbas Amanatın, Allamah Sayyed Muhammad Husayn Tabatabainin, Sayed Khatabın, Harri D. Baumanın, Davud Əhmədin, Clar Alexanderin, Victoriya Redkliftin, Ajmal Hussainin, Edward V. Saidin, Allama Mohammad Iqbalın, Cenni Vaytın, Angel Rabasanın, Coel Hayvardın, Birgit Kravietsin, Helmut Reyfeldin, Xaled Abu el Fadlın, John L. Espositonun, Cemal Karakasın, Stavroula Xronanın, Tereza Kapelosun, Graham E. Fullerin, Albert Houraninın, Fariborz Haghshenassın, Mixael Eysenstadtın, Mixael Nayhın, Əhməd Əlinin, Eş Ceynin, Mehdi Halajinin əsərlərini mövzuya aid tədqiqat işləri kimi göstərmək olar[1].

---

с.;Корбен Анри. История исламской философии. Пер. с франц. А.А.Кузнецова. Москва: Прогрес-Традиция, 2010 - 360 с.;

[1] Ali Massoud Ansari. Iran, Islam and Democracy: the Politics of Managing Change 2000 - 327 p.; Berkes N. The Development of Sekularizm in Turkey. Montreal, 1964 - 570 p.; Brzezinski Z. The Grand Chessboard American Primacy And Its Geostrategic Imperatives. Basic Books, 1998 - 223 p.; Esposito John L. The Islamic Threat: Myth or Reality? New York, OxfordUniversity Press, 1992 -

Adları çəkilən və digər tədqiqatçıların islam dəyərlərinə, islamın siyasi amilinə, onun hüquqi əsaslarına, mənəvi normalarına, cəmiyyət tarixində oynadığı roluna və s. olan münasibətini təhlil edərkən belə bir qənaətə gəldik ki, cəmiyyət inkişaf etdikcə, onun hər bir tarixi mərhələsində islamın rolu və əhəmiyyəti dəyişir və yeni qiymətləndirilmələr, yeni yanaşmalar tələb edir. Bu kontekstdə dissertasiya işinin mövzusu kifayət qədər aktualdır.

**Tədqiqatın obyekti və predmetı.** Tədqiqatın obyekti kimi fəlsəfə tarixində islam və millətçilik fenomeni, tədqiqat işinin predmeti isə müasir şəraitdə islam dininin və millətçiliyin siyasi amil kimi oynadığı rolun tədqiq edilməsidir. Təbii ki, burada təhlil fəlsəfə tarixində formalaşmış nəzəri konsepsiyalar vasitələri ilə aparılacaqdır.

**Tədqiqatın məqsədi və vəzifələri** tədqiqat işinin isiqamətindən irəli gəlir. Əsas məqsəd XX əsrin sonu-XXI əsrin əvvəllərində Yaxın və Orta Şərq bölgəsində olan iri müsəlman dövlətlərində baş verən

---

243 p.; Efe Peker. A Comparative-Historical Sociology of Secularisation: Republican State Building in France (1875-1905) and Turkey (1908-1938) - 386 p.; Esposito John L. The Islamic Threat: Myth or Reality? New York, Oxford University Press, 1992 - 243 p.; Erik Jan Zürcher. Kemalist düşüncenin Osmanlı kaynakları. In Ahmet İnsel(ed), Modern Türkiye düşünce: Kemalizm, cilt 2, İstanbul: 2004.44 - 55 s.; Fukuyama F. The End of History and The Last Man // Free Press A Division of Macmillan, 1992 - 403 p.; Frederic Volpi .Islam and Democracy : The Failure of Dialogue in Algeria . Copyright Date 2003. Published by Pages :184.; Gelner E. Nations and nationalism. Cornell University Press, 1983 - 150 p.; Graham E. Fuller. The future of political islam. New York: Palgrave Macmillan, 2003 - 241 p.; Huntington S. P. Clash of Civilizations? Simon 6 – Schuster. New York: 1996 - 353 p.; Hourani Albert. Islam in European Thought.CambridgeUniversity Press, 1991 - 199 p; Jackson Roy.Fifty Key Figures in Islam.Taylor & Francis e- Library.2006 - 241 p.; Karakas Cemal. Islam and Laicism: Between the Interests of State, Politics, and Society. PRIF Reports No. 78 – Peace Research Institute Frankfurt, 2007 - 50 p.; Kemal H. Karpat. The Politicization Of Islam: Reconstructing identity, State, Faith, and Community in the Late Ottoman State. Oxford University Press 2001 - 542 p.; Mehdi Khalaji. The Last Marja. Sistani and the End of Traditional Religious Authority in Shiism. // Policy Focus. September 2006; Tabatabai Allamah Sayyed Muhammad Husayn. Shi’ite islam. Translated and Edited by S.H. Nasr. State University of New York Press, 1975 - 268 p. və s.

sosial-siyasi və mənəvi-mədəni proseslərin təhlili əsasında onların inkişafında islam amilinin rolunu aşkar etməkdir. Təbii ki, burada həm də sosial-siyasi proseslərin mühüm nəticəsi olan millətçilik, onun mahiyyəti, yaranma şərtləri (o cümlədən dinlə bağlı), inkişaf xüsusiyətləri təhlil olunacaqdır.

Qarşıya qoyulan məqsədin reallaşdırılması ilk növbədə aşağıdakı vəzifələrinyerinə yetirilməsi tələbini irəli sürür:

- mövzuda Yaxın və Orta Şərq bölgəsində olan iri müsəlman ölkələrində milli və dini kontekstdə baş verən sosial-siyasi və mənəvi hadisələrə fəlsəfə tarixi prizmasından metodoloji yanaşma və bu problemin müasir elmi-nəzəri tərəflərinin müəyyən edilməsi və təhlili;
- bu ölkələrdə baş verən proseslərdən irəli gələrək islam və millətçilik ideyalarının mahiyyətini, oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, eyni zamanda müasir islamın siyasi formasının təkamül yolunu öyrənməklə müasir dövrün reallığına cevrilən dini millətçiliyin ideya və düşüncələrinə nəzər salmaq;
- islam və millətçilik ideyalarının tarixi-fəlsəfi inkişafı nəticəsində müxtəlif cərəyanların, ən əsası yeni osmançılığın yaranması və milli, dini, çöğrafi baxımından fundamental cərəyana çevrilməsi prosesini təhlil etmək;
- müsəlman ölkələrinin ən cətin həlli məsələsi sayılan islam qanunları və sekulyarizm problemlərinin qarşılıqlı münasibətlərini və bu iki sistemin hansı fəlsəfi-tarixi müstəvidə paralel hərəkət etməsini tədqiq etmək;
- dünyada siyasi islam və islam layihəsi haqqında olan məlumatlara,islam hüquq sistemlərinin institutlaşdırılma proseslərinə və burada siyasi-nəzəri aspektlərə nəzər salmaq;
- islamla bağlı müxtəlif siyasi doktrinaların, ideyaların və konseptual yanaşmaların fəlsəfəsi təhlilini həyata keçirmək, onların praktik tətbiqi modellərini təsvir etmək.

**Tədqiqatın metodları.** Dissertasiya işinin metodoloji əsasını tarixi-fəlsəfi və sistemli analiz metodları təşkil edir. Konseptual yanaşma islamın sosial hadisə olaraq institutlaşma prosesində həm mənəvi, həm də praktik-siyasi xüsusiyyətlərinin qazanılmasını nəzərə almaqla müasir dünya nizamında, milli özünüdərk və milli ruhun

formalaşmasında oynadığı rolun qiymətləndirilməsindən ibarətdir. Bu halda islamın mənəvi, hüquqi, siyasi tərəfləri sistemli şəkildə, real faktlar və hadisələr, nəzəriyyələr və yanaşmalar, ideoloji doktrinalar və müddəalarla bağlı tədqiqat aparılmış, müvafiq müqayisələrlə lazımi qənaətlər çıxarılmışdır.

Tədqiqatın empirik əsasını XX əsrin əvəllərindən baslayaraq islam dünyasında baş verən dini-etnik münasibətlərin öyrənilməsi təşkil etmişdir. Tədqiqat işində islam dünyasının mərkəzinə olan təsirləri kənardan müşahidə etməklə bu münasibətlərin daxildə özünü necə aparması tədqiqat obyektinə çevrilmişdir. Bu müşahidələr müqayisələrdən, fərqləndirmə və sistemli analizdən ibarətdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Fəlsəfə tarixində İslam və millətçilik münasibətlərinin təhlili onların ziddiyyətli təkamül prosesi keçdiyini göstərir. Bu, müxtəlif xalqların və millətlərin inkişafı şəraitində islamın bir din,millətçiliyin isə sosial sistem kimi formalaşmasının özəllikləri ilə bağlıdır.
- İslam fəlsəfəsi millətçilik ideyalarının inkişafına mühüm təsir göstərmişdir. Ancaq bu təsir bölgədən bölgəyə və əyalətdən əyalətə dəyişkəndir və müxtəlif təriqətlər çərçivəsində ziddiyyətli xarakter daşıyır.Təbii ki, islam ideologiyasının inkişaf istiqamətləri də burada mühüm əhəmiyyət kəsb edir.
- Millətçilər və islamçılar arasında gedən ideoloji-siyasi mübarizənin özünəməxsus tarixi-fəlsəfi, nəzəri əsasları vardır ki, onlar diqqətlə nəzərdən keçirilmişdir. Eyni zamanda bu əsasların fəlsəfi elm kimi formalaşmasının metodoloji əsaslarını və xüsusiyyətləri müddəalar şəklində nəzərə alınmışdır.
- İslam mədəniyyətinin siyasi-nəzəri aspektlərinə metodoloji yanaşma prinsiplərində müasir fəlsəfənin, ilk növbədə fəlsəfə tarixi elminin paradiqması baxımından qiymətləndirilmə zərurəti.
- Türk millətçiliyində islam faktoru və neosmanizm cərəyanının meydana çıxmas, eyni zamanda İslam fəlsəfəsinin inkişafı nəticəsində islam ümməti ideyalarının formalaşmasıvəmilli, dini, çöğrafi baxımından fundamental cərəyana çevrilməsi prosesini təhlil nəzərdə tutulur.
- XIX əsrin axırı və XX əsrin əvvəlləri Azərbaycanda milli-mədəni dirçəliş problemlərinə tarixi-fəlsəfi baxış.

-İslam hüquq sisteminin milli dərketmə prosesinə təsiri müsəlman ölkələrində islam qanunlarının sekulyar dövlət strukturlarına təsiri və inkişaf perspektivləri ilə bağlıdır.

**Tədqiqatın elmi yeniliyi.** Elmi yenilikləri ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi sadalamaq olar:

-"İslam və millətçilik: tarixi-fəlsəfi aspektlər" mövzusunda təqdim olunmuş dissertasiya məhz bu aspektdə Azərbaycanda XXİ əsr fəlsəfə tarixində öyrənilən mövzular içində olduqca fərqli cəhətlərə malikdir.Eyni zamanda bu problem müasir dünyada alimlərin, tədqiqatçıların və ümumiyyətlə dünya ictimaiyyətinin daim diqqət mərkəzində saxlanılır.

- Dissertasiyada milli və dini ideyaların kompleks şəkildə tədqiqatı aparılmış və müxtəlif situasiyalarda ideoloji müdaxilələr, müstəqil düşüncə tərzinin sındırılması prosesləri tam şəffavlığı ilə göstərilmişdir.Tədqiq olunan problem ilkin mərhələdə lokal cəmiyyətlərdə öyrənilir və sonrakı mərhələyə keçərək qlobal dünyanın yeni dini-etnik və fəlsəfi-tarixi paradiqmal konstruksiya qurğusunda fəal istirak edir.

- İslam və millətçilik probleminin tədqiqi Yaxın-Orta Şərq bölgəsində yaxın illərdə baş verə biləcək bir cox münaqişə və mübahisələrin fəlsəfəsini öyrənməklə həmin cəmiyyətləri problemin həlli məsələsinə yaxinlaşdırmaq işinə kömək göstərə bilər.

- Tədqiqat işinin yeniliyi məhz bu problemləri araşdırmaq, islam dininin və milli ideyaların kənar quvvələr tərəfindən təhrif edilməsinə müəyyən aydınlıq gətirməkdir.

- Bölgə dövlətlərinin parçalanmasına yönəlmiş siyasətdə islam və millətçilk ideyalarından çox geniş surətdə mənfi mənada istifadə edilməsi artiq hamıya məlumdur. Belə neqativ halları həqiqətə, məntiqə uyğun təhlil etmək bu tədqiqat işinin yeniliyini təşkil edən elementlərdən ən əsasıdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** İşin praktiki əhəmiyyətini müasir islam dünyasında baş verən hadisələrin ifrat və qeyri-stabil olması və nəticədə islam dünyasının pərakəndə hərəkət etməsi ilə əlaqələndirsək,  yanılmarıq. Bura həllini gözləyən daxili problemləri - ərazi, siyasi, sosial, etnik-dini və ən ağırı – dini

təriqətçiliyin, eyni zamanda beynəlxalq münasibətlərin və dünya siyasətinə aid olan sualların cavablandırılmasını göstərmək olar.

**Aprobasiyası və tətbiqi.**Tədqiqatın məzmunu və əsas müddəaları məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) norma və tələblərinə uyğun yerli və xarici jurnallarda, eləcə də respublika və beynəlxalq səviyyəli elmi konfransların materiallarındaöz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Bakı Dövlət Universitetinin"Fəlsəfə tarixi və mədəniyyətşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya giriş, üç fəsil (səkkiz yarımfəsil), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

İşin həcmi 156 səhifədir. Giriş 12 səhifə, I fəsil 43 səhifə, II fəsil 44 səhifə, III fəsil 31 səhifə, nəticə və təkliflər 6 səhifə, ədəbiyyat siyahısı 18 səhifədir. İş ədəbiyyat siyahısız 263034 işarədən ibarətdir (arası nəzərə alınmadan). İş ədəbiyyat siyahısız 260482 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın brinici fəsli **"İslam və millətçilik problemlərinin nəzəri əsasları"** adlanır və dörd yarımfəsildən ibarətdir.**"İslam və millətçilik münasibətləri:millətçilik ideyalarına islam dünyagörüşünün təsiri"** adlı birinci altfəsildə göstərilir ki, əsrlər boyu İslam dininin tərkibində toplanmış sosial güc XX əsrin əvvəllərindən başlayaraq sonuna qədər özünü islahatçılıq meyillərində, fəlsəfi-etik normalarda, din və millətçilik fenomenində göstərmiş, sonrakı mərhələlərdə "islam sosializmi" və "islam demokratiyası" konsepsiyalarına çevrilərək bu fenomeni öz kulminasiya nöqtəsinə çatdırmışdır.

Ənənəvi olaraq islam dininin yayıldığı ölkələrdə bu ideyaların sıx və zidiyyətli bağlantısı olub inkişaf etmiş, islam mədəniyyətinin olduğu cəmiyyətlərdə sosial-mədəni sisteminin əsas hissəsi kim

formalaşaraq bir çox təbəqələr üçün dünyagörüşü və inteqrasiya rolunu oynamışdır.

Eyni zamanda millətçi ideyalar milli azadlıq hərəkatlarında, etno-milli hüquqların qorunmasında, siyasi ideologiya və milli müstəqillik məsələlərində çox mühüm yer tutmuşdur. İslam dininin yayıldığı ölkələrdə bir çox qlobal problemlər meydana çıxmış və bu məsələlərdə hər hansı bir dəyişiklik beynəlxalq münasibətlər sisteminə öz təsirini göstərmişdir. Dünyanın bu hissəsində, yəni Yaxın və Orta Şərq bölgəsində sosial proseslərin təşəkkül, təkamül və tarixi təzahürlərinə tam aydınlıq gətirmək üçün ictimai şüurda islam və millətçiliyin qarşılıqlı münasibətlərinə nəzər salmaq lazımdır. Bizim tərəfdən bu qarşılıqlı hərəkətlərin tədqiqində islamla millətçiliyin təkamül prosesi nəticəsində əmələ gələn asılılıq münasıbətlərini çıxış nöqtəsi kimi göstərməyimiz təqdirəlayiq olardı.

İslamın sosial-siyasi konsepsiyaları feodal münasıbətlərin əmələ gəldiyi dövrdən formalaşmış, müəyyən dövrə qədər tayfa quruluşunun bəzi elementlərini özündə qoruyub saxlamışdır.

İslam dünyasında baş verən proseslərin bu istiqamətdə hərəkətə gəlməsi beynəlxalq aləmdə "islam faktoru" nu XX əsrin ikinci yarısından sonra aktiv siyası-iqtisadi mövqeyə çıxartdı. Bu aktivlik nəticəsində Şərq ölkələrinin hakim elitaları öz daxili və xarici siyasətlərini yenidən qurmağa və yeni istiqamətlərə yönəltmək məcburiyyətində qaldı.

Birinci fəslin ikinci **"Millətçilər və islamçıların tarixi-fəlsəfi ideya mübarızəsi**" adlı altfəsildə qeyd olunur ki, Yaxın Şərqin ilk dünyəvi dövləti sayılan və rəsmi ideologiyasını kamalçılıq modifikasiyası üzərində quran Türkiyə Respublikası ideya cəhətdən qütbləşmə prosesini çox böyük sürətlə həyata keçirdi. Bu prosesin sürətlənməsinə Türkiyə Respublikasının banısı və ilk prezidenti M.K.Atatürkün irəli sürdüyü altı prinsip - respublikaçılıq, millətçilk, xalqçılıq, laiklik, etatizm, inqilabçılıq – səbəb olmuşdur[1]. Burada "Gənc türklər" təşkilatının da rolu qeyd olunmuşdur.

[1]Erik Jan Zürcher. Kemalist düşüncenin Osmanlı kaynakları. In Ahmet İnsel(ed), Modern Türkiye düşünce: Kemalizm, cilt 2, İstanbul: 2004 .44 - 55 s.

Kamalizm ideyaları ilə formalaşan millətçilərin sekulyar baxışlarının əsas hissəsi laikliyə söykənmişdir. Türkiyə Respublikasında Atatürkün qurduğu sistemin bir çox elementləri Fransa modelinə söykənmişdir. Din sahəsində həyata keçirilən islahatlar Fransa sekulyarizminin əsas elementləri ilə zənginləşdirilmişdi.

Avropa modernizimınə üstünlük verən Göyalpın "türkizm-islamizm-modernizm" konsepsiyasının əsas çıxış nöqtələri əksər hallarda osmançılıq və panislamçılıq ideyaları ilə cilalanır və milli ideologiyada türkçülüyə, beynəlmiləl ideologiyada isə islamçılığa söykənirdi[1].

Türk millətçi ideyalarının formalaşmasına xidmət edən filosof türk milli-etnik sistemini Qərb ideyaları ilə sintez etməklə mədəniyyət və sivilizasiya arasında fərqlər tezisini işləyib hazırlamışdır [2].

XX əsrin əvvəllərindən bu günə qədər İslam və millətçilik Türkiyədə iki əsas funksiyaya, türk vətəndaşlığının formalaşmasına və dünyəviləşdirilmiş müsəlman cəmiyyətlərində islam dəyərlərinin qorunub saxlanılmasına xidmət etmişdir. Qeyd etmək lazımdır ki, Türkiyədə din və millətçi ideyalara yuxarıda göstərdiyimiz konsepsiyalar bir əsrdən də çox öz tarixi-fəlsəfi təsirini göstərmişdir.

Bu fəslin üçüncü, "**İslam mədəniyyətinin siyasi-nəzəri aspektləri**" adlanan altfəsildə göstərilir ki, islamçı və millətçi təşkilatların fəlsəfi nəzəriyyələrinin konseptual istiqamətləri Türkiyə nümunəsində bir neçə hissəyə ayrılaraq müəyyən zamanda birləşir, müəyyən zamanda isə ayrılırdı. Bu konseptual istiqamətləri biz bir neçə faktorla əlaqələndirə bilərik.

- İlk olaraq vətəndaş cəmiyyətinin, Qərbdə mövcud olan sosial-iqtisadi münasibətlərin, güclü orta təbəqənin və güclü mərkəzləşdirilmiş dövlətin yaradılması konsepsiyasını millətçilərin konseptual istiqaməti kimi göstərmək olar.

---

[1]Göyalp, Z. Türkçülüyün əsasları. Bakı: N . 1991 - 35 s.
[2]Gökalp, Z. Türkleşmek, islamlaşmak, müasirleşmek. Ankara: 1997 - 120 s.

- Türkiyə dövlətinin yerləşdiyi coğrafi məkanı nəzərə almaqla Qərb nəzəriyyələrindən uzaq, Şərq cəmiyyətinə uyğun dini, ənənəvi həqiqətləri özündə əks etdirən konsepsiyalar vasitəsilə konstitusiyon dövlət qurmaq arzusunu islamçıların konseptual ideya istiqaməti kimi göstərmək olar.

- "Osmanızm" konsepsiyalarında imperiyanın müasir sivilizasiyaya uyğun qorunub saxlanılması ideyalarına qarşı hər iki ideyanın (islamçı və millətçi: R.M) "osmanizmə" qarşı birgə mübarizəsinin konseptual ideya istiqaməti.

- Türkiyənin milli müstəqillik ideyalarına "türkçülük" konsepsiyalarının cilalandırılması və respublikaçılıq ənənələrinin formalaşdırılması prosesinin sürətləndirilməsi. Nəticədə yeni yaranmış konsepsiya özünə Qərb liberalizmini yad element kimi göstərir, islam həmrəliyi və millətçi etatizmin fəlsəfi konsepsiyalarını dövlət siyasətində yeni sosial-iqtisadi əsaslar kimi konseptual şəkildə nümayiş etdirir.

- Mustafa Kamal Atatürk tərəfindən irəli sürülmüş milli dövlət doktrinasında "üçüncü" inkişaf yolu konsepsiyasının əsas elementlərdən biri kimi göstərilməsi. Həmin dövrdə müsəlman islahatçılarının irəli sürdüyü nə sosializm, nə də ki, kapitalizm, yalnız "üçüncü" inkişaf yolu konsepsiyası bütövlükdə "İslam birliyi ideyasının"[1] tərkib hissəsi kimi hesab olunurdu.

Millətçiliyin siyasi nəzəriyyələrini, siyasətini islam dini və onun sosial, etik dəyərlər sistemi ilə kompleks şəkildə əlaqələndirdikdə millətçiliyin strukturu ilə islam etikası arasında köklü problemlər yaranır. Belə ki, islam özünün ortodoks əsaslarında millətçilərin sekulyar ideyalarını özü üçün təhlükə hesab edir. Lakin millətçilər bəzi islam qaydalarına sekulyar xarakter verir və milli maraqlara cavab verən bu tipli islam ideyalarından geniş istifadə edirdilər. Bu sintez nəticəsində Türkiyədə digər ölkələrdən fərqli olan sekulyarizmin spesifik nəzəriyyələri meydana çıxmağa başladı.

---

[1]Mürşüdlü, Q. Cəmaləddin Əfqani – İslam birliyi // Fəlsəfə və sosial-siyasi elmlər. N. 5-6 (23-24) Bakı: 2008 - 29 s.

Nəticədə İslam dinində mövcud olan “azadlıq, bərabərlik və ədalət” prinsiplərinə uyğun “üçüncü inkişaf yolu” doktrinasının bəzi mühüm elementləri millətçilərin inkişaf yolu elan edildi.

Burada göstərilir ki, müasir dünyada baş verən siyasi situasiyaları və bir çox spesifik xüsusiyyətlərə malik olan islam siyasi mədəniyyətini bilmədən onun fundamental ideyalarını konseptual şəkildə başa düşmək olmaz. Bu proses əvəllərdə dünya ictimaiyyətinin əksər hissəsində keçən əsrin birinci yarısından başlayaraq islam haqqında neqativ fikirlər fonunda formalaşmışdır.

Siyasi islamın və ya Qərb mənbələrində islamizm sözü ilə təqdimi və bu ideologiyanın yaranma tarixi XIX əsrin axırları və XX əsrin bütün onilliklərində davamlı surətdə baş vermışdı. İslam ölkələri özlərini sekulyar, dünyəvi və demokratik elan edərək öz daxilində yarıleqal, yarıgizlin siyasi islam ideyalarını və bu ideyalara uyğun tarixi-fəlsəfi paradiqmalar yaratmağa meylləndilər.

Siyasi islamın yaradıcılarından Səyyid Qütbinin, Əbul-əla Məudidinin və başqalarınınsiyasi islam konsepsiyalarına yanaşma metodları, siyasi mübarizə vasitələri və islam dövləti yaratmaq baxışları eyni istiqamətə yönəlməsinə baxmayaraq, keçmişdə baş vermiş tarixi-fəlsəfi paradiqmalar toplusu onların vahid ideoloji cəbhədən çıxış etmələrinə ciddi maneələr yaradırdı.

Belə şəraitdə boyük keçmişin və ideal gələcək konsepsiyalarının tədqiqı islam dinini qəbul etmiş və müsəlman toplumunu yaratmış xalqların, etnosların tarixi-fəlsəfi konyukturası, gücü, milli və dini özünüdərketmə prinsipləri bu problemi müsəlman sivilizasiyasının siyasi vektorundan müəyyənləşdirilmə tələbini ortaya qoyur[1].

Bu konyuktura həmin dövrdə siyasət və dövlət münasibətlərinin siyasi islam kontekstində öyrənilməsi üçün üç əsas yanaşmanı ortaya çıxarır:normativ-hüquqi (bu yanaşma tamamilə müsəlman hüquq sisteminin təməlində yaradılan siyasi və hüquqi doktrinalara söykənərək xüsusi siyasi təlim yaradır və müxtəlif teokratik, yəni Xəlifət, İmamət formalı dövlət qurluşlarını qidalandıraraq onlara həyat mövcudluğu verir); etik-fəlsəfi (bu yanaşma əsasən siyası

[1]Kamal, N. K. The Politicization Of Islam: Reconstructing identity, State, Faith, and Community in the Late Ottoman State. Oxford University Press 2001- 542 p.

fəlsəfi ideyalara söykənərək antik dövrün siyasi konsepsiyalarını özündə ehtiva edir); mənəvi-didaktik (bu yanaşma ənənələrə söykənərək siyası janr əsasında ədalətli hakim, ədalətli şah obrazlarını apoleqetik səviyyəyə qaldırmaqla müsəlman dünyasında siyasi hakimiyyət mexanizmlərini fərdi həyat sistemindən ayırır və onu universal dövlət sistemi kimi yaradaraq aliləşdirir). Burada həm də islam prinsiplərinin universal olması ideyası, daha sonra isəbunların əsasındaislam dövlətinin - bu konsepti islam dininə vurulanzərbə kimi başa düşmıək lazımdır - yaradılması fikri irəli sürülmüşdür.

XX əsrin 70-80 illərindən başlayaraq islam ilahiyyatcıları islam ənənələrini müasir dövlət ideyaları ilə əlaqələndirmək və bu nəzəriyyələr əsasında islam qaydalarına söykənən praktiki dovlət qurmaq cəhdlərini acıq surətdə göstərməyə başladılar. Siyası islam dunyada mövcud olan faşızmə, kapitalizmə, sosializmə, liberalizmə və qlobalizmə qarşı çıxış edir. Siyasi islam islam qanunlarına məqsəd kimi yox, vasitə kimi baxır və onu hec bir halda sırf müsəlman hüquq qanunlar toplusu saymır.

Yuxarıda göstərilən konsepsiya və müddəalar islamın əsas sütunlarından sayılmaqla yanaşı müsəlman və qeyri-müsəlman xalqları arasında ayrıcı xətt rolunu oynayır. Bu sərhəd ilkin mərhələdən inqilabi düşüncə dəyişikliyinə məruz qalmasa, elə əvvəlki kimi azkeyfiyyətli və hərəkətsiz olaraq tarixin “arxa qapısında” qalacaqdır. Yuxarıda göstərdiyimiz “daxili” islam müasir dövrün əsas ideologiyası sayılan etiraz konsepsiyasına yeni təkan verir və eyni zamanda “sağçı” və “solçu” elektoratı da özünə cəlb edərək ümumdünya islam lahiyəsini fundamental ideyaya çevirir.

İkinci fəsil **“İslamda millətçilik amilinin formalaşma prosesi”** adlanır. Bu fəslin birinci, “**Türk millətçiliyində islam faktoru: neosmanizm cərəyanının meydana çıxması”** adlanan altfəslində göstərilir ki, müasir Türkiyənin dövlət konsepsiyaları türk filosoflarının nəzəri düşüncələrində bir çox prinsiplərin sintezi kimi, azadlıq və bərabərlik, mərkəzləşdirmə və özünüidarəetmə, etatizm və azad iqtisadiyyat, monarxiya və respublikaçılıq, sekulyar islam və millətçilik kimi ideyaların formalaşmasına səbəb olmuşdur. Türkiyədə sekulyarizmin demokratiya və müasirliyə aparan yolda əsas element

kimi çıxış etməsi bir çox Qərb analitikləri tərəfindən bütün müsəlman dünyası üçün "model" kimi qəbul edilirdi. Türkiyədəki bu proses imperiyadan milli dövlətə, sekulyarizmdən demokratiyaya keçid kimi yadda qalmış və islamçılarla millətçilər arasında gərginlik yaratmışdır[1].

Türkiyə respublikasında sekulyarizmin başa düşülməsi ingilis-sakson təcrübəsindən uzaq olub daha çox fransız filosofların, sosioloqlarının ideyalarına əsaslanmış və bu səbəbdən respublika elan olunduğu gündən özünü Avropa dəyərlərinə söykənən bir dövlət hesab etməyə başlamışdır [2] .Bu dövrdən başlayaraq dünyəvi və mənəvi dəyərlər arasında, daha dəqiq desək islamçı və millətçi ideyaların daşıyıcıları arasında ayrılma prinsipləri sürətləndi. Türk Respublikasının ideya əsasını özünü kamalçı doktrinalarda təcəssüm edən türk millətçiliyi təşkil edirdi.

Müasir Türkiyədə islam faktorunungüclənməsi sekulyarizm tərəfdarlarında islamçı qüvvələrə qarşı münasıbəti çox böyük dəyişikliklərə məruz qoydu. Bu strategiyayanın əsasını "türk-islam sintezi" konsepsiyası ilə kamalizm doktrinası təşkil edir və təbii ki, bu doktrina mədəni-tarixi, fəlsəfi-ideoloji tərkib hissə kimi qəbul olunurdu[3].

Neoosmanizm identikliyinin əsasını mötədil islam və islam demokratiyası təşkil edir.1980 illərdə başlanan iqtisadi islahatlarnəticəsində dini-milli ideologiyanı asanlıqla qəbul edən yeni türk texnokratlar zümrəsinin yarandığını qeyd etmək olar (Rifah partiyası, Adalet və Kalkınma Partiyası). Bu sistemin ideologiyası universal olub bütün sosial təbəqələrin maraqlarını özündə birləşdirərək geniş milli konsensusa yol açırdı. Bu əsaslarda Türkiyə bölgədə lider dövlət və müasirislam dövlətçiliyinin yeni modeli kimi göstərilir.

---

[1]Thomas, S. M. The Global resurgence of Religion and the Transformation of International Relations. The struggle for the soul of the twenty-First century, - 2005. - 300 p.

[2]Peker,E.A Comparative-Historical Sociology of Secularisation: Republican State Building in France (1875-1905) and Turkey (1908-1938) - 386 p.

[3]Türk-Arab ilişkiləri: geçmiş, bugün və gelecekte. Uluslararası konferans bilgiler. Hacettepe universitesi. Ankara, 18-22 Haziran, 1979

Daxili islahatlar müsbət nəticələr verdikcə türk-islam sintezi konsepsiyaları ilə qidalanan islamçı partiyaların AKP ətrafında konsolidasiyası sürətlənir və bu həmrəylik xarici mühitə də öz təsirini göstərirdi. Lakin bu siyasət müəyyən mənada millətçilərin siyasi doktrinalarına (bütün gücünü öz sərhədləri daxilində səfərbər etməklə daxili inkişafı təmin etmək: Atatürk konsepsiyası) ziddiyyət yaradırdı. "Neoosmançılar" Avropa institutlarından bəhrələnməklə Türkiyənin statusunu müsəlman dünyasında birinci etməyi qarşılarına bir məqsəd kimi qoymuşlar[1].

Türkiyə modelinin əsas üstünlüyü osmanlı dövründən başlanan islamçı ideyalarla türk millətçiliyinin sintez prosesi və bu proses nəticəsində təkamülə uğrayan yeni islam millətçiliyinin meydana çıxması olmuşdur. Dissertasiyada həmin prosesin mərhələli inkişafı göstərilmişdir.

İslam ideologiyasının yeni mərhələdə inkişafı və siyasi mübarizələr fonunda mobil qüvvə kimi çıxış etməsi modernizm siyasəti kimi təqdim edilir və Qərb model kontekstində dini- milli dövlət qurmaq cəhdlərini bir daha nümayiş etdirir.

Ikinci fəslin növbəti altfəsil**"İslam fəlsəfəsinin inkişafı nəticəsində islam milləti ideyalarının formalaşması"** adlanır. Göstərilir ki, islam dünyasında millətçilik zəminində baş verən hadisələr müsəlmanlar arasında böyük problemlər yaratmışdır. Millətçilik ideyalarının müsəlman təlimləri ilə ziddiyyətə girməsi və müsəlman birliyi ideyalarına ciddi zərbə vurması islam dünyasını arzuolunmaz istiqamətlərə yönəltmişdir. İslam dininin vahid etiqad və ideya daşıyıcıları olan insanların təssəvürlərində milli mənsubiyyət elementlərinin olması islam islahatçılarına müəyyən mənada diskomfort yaratmış və nəticədə onlarda milli ideyaları islam milləti konsepsiyaları ilə əvəzləşdirmək arzusu yaranmışdır.Dissertasiya işində XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərindən başlayaraq islam və millətçilik ideyalarının biri-birinə yaxınlaşması səbəbləri araşdırılır, göstərilir ki, baş verən proseslər

[1] Artur Adamczyk. Neo - Ottomanizm in Turkey's foreign policy: A Polish Perspective The Centre for Europe,University of Warsaw,Poland. Journal of Liberty and International Affairs / Vol.5, No. 1, 2019

nəticəsində müxtəlif milli nəzəriyələrin yaranması və həmin nəzəriyyələrin vətənpərvərlik ideyaları ilə cilalandırılması dünyəvi xarakterə malik olan milli dövlətlərin yaranmasına səbəb oldu.

İrəli sürülən millətçi nəzəriyyələrin həqiqi xüsusiyyətləri həmişə məlum məkanda mövcud olan sosial təbəqələrin mövqeyindən asılı olurdu. Bu proses islam dininin inkişaf mərhələlərində də özünü göstərmiş və yaranan müsəlman mədəniyyəti müsəlman dünyasının istənilən bölgəsində zaman-məkan spesifikası ilə fərqlənmişdir. Göstərilir ki,islamda baş verən islahatçı - modernizm prosesləri millətçiliyi siyasi nəzəriyyə kimi özünə çəkir, diqqəti dünyanın rasional görüntülərinə istiqamətləndirməklə dini siyasətdən ayırır və millətçilərin ən böyük arzusu sayılan sekulyar dövlətin nəzəri əsaslarını formalaşdırır.

Daha sonra təqiqatda göstərilir ki,müxtəlif formalara düşən iran millətçiliyi müasir iranın aparıçı ideologiyasına çevrilərək mövcud siyasi səhnəinin mühüm elementi kimi ölkənin sosial-siyasi, iqtisadi-mədəni və tarixi-fəlsəfi paradiqmasını müəyyənləşdirir.

XX əsrin əvvəllərində Osmanlı imperiyasının süqutu nəticəsində müsəlman və osmanlı identifikasiyası, türk mədəni orjinallığı və türk dövlətində şəxsiyyət prinsipləri arasında baş verən parçalanma Türkiyə Respublikasının yaranması ilə nəticələndi.Eyni zamanda qonşu İranın dövlətçilik identikliyində baş verən dəyişikliklər və azərbaycanlıların bu mübarizəyə qoşulması bölgədə baş verən dövlət struktur dəyişikliklərini daha da dramatikləşdirdi. XIX əsrin sonunda azərbaycanlılar arasında milli identiklik mübahisələri öz kuliminasiya nöqtəsinə çatdı.

XIX əsrin sonunda bölgədə panislamçı və pantürkist ideyaların populyarlığı Azərbaycan millətçi ideyalarının formalaşmasında mühüm rol oynadı. Dissertasiya işində vətəndaşlıq prinsiplərinə söykənən milli ideyaların, dini ideyalara söykənən milli ideyaların prinsipial fərqlənmə mexanizminə nəzər salındı və nəticədə iki əsas konsepsiyanın meydana çıxması göstərilir.

Birinci konsepsiyada vətəndaşlıq prinsipləri çərçivəsində fəaliyyət göstərən sekulyarizm millətçiliyin kollektiv müstəqilliyinə toxunmadan dövlət və millət prinsiplərinin bütün sahələrində, yəni siyasətdə, iqtisadiyyatda, sosial və ümumiyyətlə bütün fəlsəfi-tarixi proseslərdə konsensus və paritet əsasında hərəkət edir.

İkinci konsepsiyadaisə islam identikliyi çərçivəsində fəaliyyət göstərən müsəlman millətçiliyi insanın fərdi müstəqilliyinə toxunmadan dövlət və millət prinsiplərinin bütün sahələrində-siyasətdə, iqtisadiyyatda, sosial və ümumiyyətlə bütün fəlsəfi-tarixi proseslərdə islamın funksional və instrumental aspektləri, islam etikası və ailə həyatında islam qanunlarının aliliyi əsasında hərəkət edir.

Hər iki konsepsiyaya istiqamətlənmiş kompromis baxışlar və nəzəriyyələr tarixin bütün mərhələlərində millətçiliyə və dini təfəkkürə təkamül xarakterli yanaşma prinsipləri kimi dəyişkən olmuşdur.

Ikinci fəslin üçüncü altfəsili **"XIX əsrin axırı və XX əsrin əvvəlləri Azərbaycanda milli-mədəni dirçəliş problemlərinə tarixi-fəlsəfi baxış"** adlanır. Göstərilir ki, XIX əsrin ortalarında başlayaraq Azərbaycan xalqının milli dövlət kontekstində formalaşması prosesləri milli dövlətlərin kortəbii və qaçılmaz formalaşması ilə bağlı ideyalara meydan oxuyan modernist millətçilik nəzəriyyələri ilə zəngindir. Və bu proseslərdə millətlərə obyektiv və ya təbii hadisələr kimi baxan primordialistlərdən fərqli olaraq, modernistlər müxtəlif ideyalarla öz oponentlərinə sübut etməyə çalışırdılar ki, millətlər aqrar cəmiyyətdən sənaye cəmiyyətinə keçidin məhsuludur. Bu səbəbdən dissertasiyada müəyyən mənada bu nəzəriyyənin əsas müddəalarına əsaslanaraq Azərbaycan milli dövlətinin formalaşmasının əsas mərhələlərini, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda həyata keçirilən müxtəlif milli quruculuq lahiyələrinin inkişaf proseslərini və Azərbayçan türklərinin milli ideologiya əsaslarını inkişaf etdirilməsində Azərbaycan ziyalılarının görkəmli nümayəndələrinin tarixi-fəlsəfi rolunu tədqiqat obyektinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, bu ziyalıların əksəriyyəti Rusiya imperiyasının müxtəlif şəhərlərində təhsil almış intellektuallardan formalaşmış və çar Rusiyasında yaşayan digər türk mənşəli ziyalılarla əməkdaşlığı genişləndirirdi.Milli şüurun formalaşması prosesində Azərbaycan ziyalılarına diqqət yetirsək məlum olar ki, yeniikçilik, ilkin qəlib paradiqmasının əksəriyyətini Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi yaratmışdır.Millət anlamını M.F.Axunzadə işləmiş,H.B.Zərdabi isə bu ideyanı 1875 ildə davam etdirmişdir.1880 ildə nəşr olunmağa başlayan"Kəşkül"qəzeti bu ənənəyə sadiq qalaraq "türk milləti" sözlərini işlətmişdir.

Dissertasiyanın bu bölümündə Azərbaycanda maarifçilik və milli mübarizənin böyük "mədəni"mərhələsinin başlanması prosesi göstərilir. Bu mərhələnin görkəmli nümayəndələri A.A.Bakıxanov(1794-1847),M.Ş.Vazeh (1794-1852), İ.B.Qutqaşınlı (1806-1861), M.F.Axundzadə (1812-1878), H.B.Zərdabi (1837-1907), Ə.B.Hüseynzadə(1864-1940), Ə.B.Topçubaşov (1862-1934), Ə.B.Ağaoğlu (1869-1939), M.Ə.Rəsulzadə (1884-1955), M.B.Məmmədzadə(1898-1959), N.B.Yusifbəyli (1881-1920) və digərlərini Azərbaycanda müasirləşmə və ictimai-siyasi görüşlərin mənbəyi və milli dəyərlərin vəhdəti kimi göstərilməsi tədqiqat işində konseptual xarakter daşıyır.

Üçüncü fəsil**"Müasir dövrdə islam dininin inkişaf xüsusiyyətləri"** adlanır. Bu fəslin ilk **"İslam hüquq sistemlərinin milli dərketmə proseslərinə təsiri"** adlı altfəslində göstərilir ki, müsəlman hüquq sistemlərinin formalaşması heç də asanlıqla meydana çıxmamış və islam dinin daxilində təşəkkül tapan bir çox müsəlman məzhəbləri-əsasəndə sünni məzhəbləri-hüquq sistemlərində olan analoji diferensiasiyanı şərtləndirmiş və hər biri bu sistemi öz ətrafında birləşdirməyə çalışmışdır.

İslam hüquq sistemləri strukturlaşma mərhələsinə qədəm qoyduğu zaman baş verən tarixi hadisələr islam qanunlarının inkişafında bir çox problemlər yaratdı. Qərb ölkələrinin dünyada mütləqi-hakim mövqeyinə çıxması və dünyanın çox bir hissəsini, əsasən də müsəlman ölkələrini öz müstəmləkəsinə çevirməsi islam hüquq sistemlərinin təkamüllü inkişafına müəyyən mənada ağır zərbə vurdu. Osmanlı imperiyası və yerdə qalan müsəlman dünyası öz tənəzzül dövrünü yaşasa da, eyni zamanda islahatlar çağırışı bu bölgələrdə sürətlə güclənirdi. Nəticədə müsəlman ölkələrində mövcud hüquqi sistemlər qeyri-müsəlman sivilizasiyalarda inkişaf edən hüquq sistemləri ilə əvəzlənməyə başlandı.İslam hüquqşünaslarının rəyinə əsasən Qərbdən gələn sekulyar sistemlər islam hüquq sistemlərinə ciddi zərbə vurmuş, bu sistemlərin ixtiyarında yalnız ayin, mərasimlər və mənəviyyat məsələlərini saxlamaqla digər sahələrdən kənarlaşdırılmışdır.

Həm də müsəlman icmaları bir neçə qruplara bölünərək bu dəyişikliklərə müxtəlif münasibətlər göstərir və nəticədə parçalanma bu gunə qədər öz varlığını qoruyub saxlamışdır. Bu qruplardan biz ən

əsaslarını: sekulyaristləri, ənənəçilər və islahatçı-modernistləri göstərməklə yuxarıda göstərilən konsepsiyanın millətçi və islamçı ideyalara nə dərəcədə təsir etməsi və bu təsir nəticəsində hansı tarixi-fəlsəfi aspektlərin mübahisə predmeti olduğunu üzə çıxaracağıq.

Bu proses bir daha sübut edir ki,islam qanunları müasir dövrdə istənilən siyasi sistemdə movcud qaydalar və normaların mahiyyətindən başqa onların daxilində baş verən inteqrativ proseslərə intensiv təsir edir, eyni zamanda öz identikliyini qoruyub saxlayaraq modernləşir.

XXI əsrin əvvəllərindən islam dünyasında baş verən hadisələri yuxarıda göstərilən konsepsiyalar bir daha təsdiq edir və islam dünyasının fəlakətə sürüklənməsinin tarixi bir labüdlük kimi müsəlmanlara müxtəlif yollarla təlqin edilməsinin qarşısını alınmağa kömək göstərir. Bu problemə sistemli yanaşma metodu islamın hansı maraqlar, hansı mənafelər üzündən siyasiləşməsinə tam aydınlıq gətirəcək və bu problemin mahiyyətli məqamlarını daha dürüst göstərəcəkdir.

Üçüncü fəslin sonuncu altfəsli **"İslam qanunlarının sekulyar həyat sisteminə təsiri"** adlanır. Burada göstərilir ki, dünya birliyinin müasir mərhələdə inkişafına təsir edən əsas amillərdən biri də bir çox müsəlman ölkələrində siyasi islamın aktivləşməsi və islam hüquq normalarının sekulyar dövlət sistemlərinə kifayət qədər nüfuz etməsi hesab olunur. Hal-hazirda bir çox dövlətlər özlərini islam ölkəsi hesab edir, əsas dövlət sənədlərində, kütləvi informasiya vasitələrində və dövlət-siyasi xadimlərin çıxışlarında həqiqi islam dəyərlər sisteminə daim istinad edilir. Həyatın bir çox sahələri, o cümlədən dövlət, cəmiyyət və şəxsi həyat sistemləri islamlaşdırılmaya məruz qalır və bu proses müsəlman ölkələri ilə yanaşı qeyri-müsəlman ölkələri üçün və hətta bütün dünya üçün model kimi təqdim olunur.

İslam hüquq sistemlərinin elastikliyi ona digər hüquq müstəvisində yaradılan mədəniyyətlərlə münasibət qurmağa çox asanlıqla şərait yaradır və onu başqa hüquq sistemləri ilə konsensusa yaxınlaşdırır. Bu proses qarşılıqlı xarakter daşıyır.

Müasir müsəlman dövlətlərində İslam və Avropa hüquq institutları və hüquq sistemləri bir çox hallarda əlaqələndirilir. Nəticədə bu hüquq sistemlərinin əksəriyyəti özündə hüquq mədəniyyətinin müxtəlifliyini əks etdirməklə qarşılıqlı inteqrasiya və sağlam rəqabətə yol açır. Digər

hüquq mədəniyyətlərindən, beynəlxalq standartlardan geniş istiadə edilməsi və bir çox qərarların Qərb sivilizasiyasının təsiri altında formalaşması müasir islam hüquq sisteminə heç bir neqativ təsir etməmiş, əksinə qloballaşma erasında islamın təməlini daha da möhkəmləndirmişdir.

Hazırda islam hüquq sistemləri oz orjinallığını qoruyub saxlamışdır. Bunun əsas səbəbini biz digər hüquq sistemlərindən fərqli cəhət kimi islam hüququnun islam dini ilə birbaşa bağlantısı ilə izah edə bilərik. İslam dünyasında Türkiyə dövləti və İndoneziya idarə etmə və hüquq normalarına görə demokratik prinsiplərə daha çox yaxın hesab olunur.

Müasir sekulyar dövlətin islam cəmiyyətində mövcud ola bilərmi? sualına cavab vermək üçün ilk növbədə islam cəmiyyətinin strukturu və mövcudluğunun şərtləri ilə tanış olmaq lazımdır.Islam hüquq sistemində olan dini və hüquqi münasibətlər sistemi müasir müsəlman dövlətlərində olan hüquqi seqmentləşməni tam müəyyən edir və Avropa hüquq sistemi ilə münaqişəsiz mövcudluğu qoruyub saxlayır. Lakin münaqişəsiz mövcudluq sistemi heç də bütün sahələri əhatə etmir[1].

Praktiki olaraq bütün müsəlman ölkələrində (Türkiyə, Orta Asiya keçmiş sovet respublikaları və Azərbaycan istisna olmaqla) "səxsi status" məsələsində islam hüquq sistemi qanunverici və doktrinal qaydada mövcuddur. Bu sistemlərlə yaxından tanış olduqda tamamilə aydın olur ki, bu sahə islam və Avropa hüquq sistemləri ilə eyni qaydada tənzimlənmir. Əlavə olaraq qeyd etmək lazımdır ki, Avropa və islam hüquq modellərinin cinayət hüquq normalarında olan fərqlər də öz prinsipial mövqeyləri ilə fərqlənir.

Islam dini elə yarandığı gündən institutlaşmaya meyilli bir din kimi fəaliyyət göstərməyə başlamışdı. Dünya tarixində islam dininin, islam mədəniyyətinin, islam sivilizasiyasının və islam hüquq sistemlərinin institutlaşdırılması prosesini biz mühüm tarixi-fəlsəfi bir fenomen hesab edə bilərik.

**Nəticə** hissəsində göstərilir ki, müasir dövrdə islam həmrəliyi, islam ideyaları və milli dəyərlər sistemi güclü modifikasiyaya uğrayaraq

---

[1]European Parliament Platform for Secularism in Politics Seminar at the European Parliament on 1 February 2012 .

dunya siyasətinə panislamçılığın yeni forması sayılan siyası islam prinsipləri ilə daxil olmuşdur. Bu prinsiplərin yaranmasının əsas təkanverici qüvvəsi olaraq bir əsrdən artıq islam ideyaları ilə millətçi ideyaların tarıx səhnəsində qarşıdurması olmuşdur. Siyasi islam konsepsiyasının əsasını "ümmə" tarixi-fəlsəfi və dini paradiqma təşkil edir və bu konsepsiya islamda olduğu kimi dünyanın heç bir dinində, heç bir fəlsəfi təlimində tam və dolğun şəkildə özünü əks etdirməmişdir. Bu anlayışa vahid dünyagörüşü, bütün müsəlmanların hərəkətlərinin tənzimlənməsi, dözümlülük və qarşılıqlı hörmət əsasında biri-birinin başa düşülməsi daxildir.

"İslam birliyi" və yaxud "İslam həmrəyiliyi" dövlətlər arasında olan sərhədləri ləğv edir və heç bir irqi ayrıseçkiliyə yol vermir. Təbii ki, bu cür yanaşma metodu yeni dünya düzənində islam qaydalarının konseptual təsbitini verir və bu konsepsiyanın hədəfində olan məqsəd islam ideoloqlarının göstərdiyi kimi kapitalizm, sosializm və liberalizmin dünyada törətdiyi siyasi, iqtisadi və mənəvi fəsadların aradan qaldırılmasına xidmət edəcəkdir.

Cəmiyyətdə islam və millətçilik münasibətlərinin formalaşması təbii ki, yeni islam sistemini universal və eyni zamanda özünütəmin edən müasir siyasi hərəkata çevirmişdi. Müasir dünyanın reallığı ilə üzləşən islam univerisalizmi beynəlxalq hüquq sistemi ilə öz münasibətlərini klassik islam hüquq sistemi ilə uyğunlaşdırmağa çalişir və hələlik qismən də olsa buna nail olur.

Siyasi islamın beynəlxalq münasibətlərdə və dünya siyasətində olan rolu əksər müsəlman dövlətlərinin, təşkilatlarının və birliklərin qarşılıqlı münasıbətlərində daim diqqət tələb edən problemə çevrilmişdir. Bu ideologiyanın dirçəlişi, islam həmrəliyinin geniş yayılması və bir çox islam təşkilatların radikallaşması müasir dünya siyasətinin reallığına çevrilmiş, eyni zamanda müxtəlif aspektlərdə onun inkişafına və stabilliyinə təsir etmişdir.

İslam mədəniyyətitədricən cəmiyyət ucün bütün maneələri keçməyə hazır olan bir siyasi gücə çevrilərək müasir sosial-siyasi və mədəni təsir imkanlarından yararlanır və nəyə qadir olduğunu daha dolğun nümayiş etdirməyə səy göstərir.

**Dissertasiya mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Şərq və Qərb fəsəfəsində din və elm münasibətləri. Məqalə. Bakı Dövlət Universiteti İlahiyyat Fakultəsinin Elmi Məcmuəsi. 2010, sentyabr, №14, s.269-277

2. Sivilizasiyaların dialoqu, yoxsu sonu? Məqalə. Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Elmi əsərlər, Beynəlxalq elmi-nəzəri jurnal, 2010 №2, s. 79-83

3. S.H.Nəsr konsepsiyaları: İslam fəlsəfəsində elmlə dinin sintez problemi. Məqalə. Bakı Dövlət Universiteti İlahiyyat Fakultəsinin Elmi Məcmuəsi. 2011, Aprel, №15, s.131-139

4. İranda islam milləti ideyalarının formalaşması. Məqalə Azərbay.can Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu. Elmi Əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal. 2018, №2 (31), s.107-118

5. Взаимоотношения между исламом и национализмом в мусульманском мире. Məqalə. Актуальнı Проблеми Философiï ТА Соцıологıi. Науково – практичний журнал. Одеса. 2018, Випуск 22, s.104-107

6. Исламский фактор в турецком национализме: возникновение неоосманских течений. Məqalə. Государство Будущего: V Международная научно-практическая конференция. Уфа: Издательство УГНТУ. 2020, 21 мая, s. 206-209

7. Azərbaycanda dövlət strukturlarının institutlaşmasında idarəçilik prinsiplərinin rolu. Məqalə. Beynəlxalq Metafizika Mərkəzi. Metafizika jurnalı. 2020. cild 3, say 4 , sıra 12.

8. Şərq fəlsəfəsində dünyəvi islamın rolu. Tezis. Aida İmanquliyevanın 70 illik yubileyinə həsr olunmuş “Şərqişünaslığın aktual problemləri” mövzusunda Respublika elmi konfransın materialları. 2009, s. 247-248

9. Universal dəyərlər sisteminə və milli fəlsəfəyə qloballaşmanın təsiri. Məqalə. “Azərbaycan fəlsəfəsi və universal dəyərlər” mövzusunda kecirilmiş Beynəlxalq Elmi Konfransın Materialları. 2022.səh. 192-199.

10. İslam millətçilik ideyalarının müsəlman “strateji mədəniyyət” konsepsiyasına təsiri. Məqalə. Naxçıvan Dövlət Universiteti. Elmi Əsərlər. İctimai elmlər seriyası .2023, №2 (123) , s78-87

Dissertasiya işinin müdafiəsi **12 İyun 2025 11°°** da AMEA, Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **"8" "May" 2025-ci il** tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:01.05.2025
Kağızın formatı: A5
Həcm:38595
Tiraj:100